# Tənqidçinin Azərbaycançılıq həqiqətləri

## yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri



Əli Rza XƏLƏFLİ

*(Əvvəli ötən saylarımızda)*

Dəqiq mühakimələr, dəqiq seçilmiş canlılıq timsalı bədii parçalarla: *"Kərbəlayının dəstəsində cəmləşən adamlar Qəmlonun timsalında qana həris insanlar kimi görünsələr də, yazıçı onların insani ləyaqətini, el-oba təəssübünü daha çox qabardır. Bu adamlar əllərinə götürdükləri tüfəngi şura hökumətinə qarşı çevirsələr də, el-oba camaatına qarşı çevirmək fikrində olmadıqlarını, Qəmlonun hərəkətlərinə haqq qazandırmadıqlarını milli bütövlüyü rəmzləşdirən detallar kimi romana gətirir. Abasqulu bəy və Xəlillə birlikdə Şirəlini də öldürmək istəyən Qəmloya qarşı çıxan dəstə üzvlərindən biri: - Qəmlo, bəs deyil?! Bunun hər tərəfi elə özümüzünküdür, - deyə qar üzərində qaralan adamlardan biri onun qabağına keçdi. Bizi hamıynan düşmən eləmək istəyirsən? Gözün qandan doymur?"* **(səh.24).** Səmədin (**İmanın aravadını evində gizlətməsi, onun kimliyinin - təpərinin, ləyaqətinin təyinedicisidir)** Abasqulu bəylə, Xəlillə söhbəti, Abasqulu bəyin Şabanzadə ilə söhbəti, Abasqulu bəyin Kərbəlayı İsmayılla qarşılaşması, Şıxəli oğlunun düşüncələri, Şahpələng kişinin qənaətləri, lap elə Talıbovun qan-qan deyən sözləri və... romandan istinad kimi gətirilən bədii mətn nümunə - parçaları müşayiət edən şərhlər, ümumiləşdirmələr, dəqiq məntiqi hökm kimi səslənən qənaətlər, elmi tezislər bütöv bir çəməni bəzəyən güllər, çiçəklər kimi cazibə yaradır. Az qala heç bir ifadənin üstündən keçmək istəmirsən. Çünki yazı bütövlükdə millətin taleyini özünün və vətəndaşlıq missiyası daşıdığı Vətəninin taleyi bilən bir ziyalının ruhundan və varlığından çağlayıb gəlir. Bütün mətn boyu müəllifin milli ruha doğma münasibəti təkcə duyulmur, həm də görünür.

Tədqiqatdan nisbətən genişhəcmli bir parçaya diqqət edək: *"I.Şıxlının "Dəli Kür" romanındakı Cahandar ağaya münasibətdəki kimi, tənqid Kərbəlayı İsmayıl obrazına verdiyi qiymətdə də bir əsas cəhəti nəzərə almır ki, obraz millidirsə, o, ölümə məhkum ola bilməz. Ədəbi qəhrəman olaraq milli xarakter mənsub olduğu milləti simvollaşdırır, buna görə də obrazı milli xarakter kimi təqdim edib onun ölümə məhkumluğundan danışmaq, mahiyyət planında həmin hökmü milli taleyə şamil etmək deməkdir. Cahandar ağa kimi Kərbəlayı İsmayıl da ölümə məhkumluğun yox, ölümə məhkum edilmənin aqibətini yaşayır. "Qarlı aşırım"da Kərbəlayının tale yolu sovet hökumətinin gəlişi ilə milli varlığın düçar olduğu böyük fəlakəti simvollaşdırır. "Kərbəlayını yeni həyata düşmən edən hadisə" heç də tənqiddə iddia edildiyi kimi, "dünənki muzdurların bu gün özlərini Kərbəlayı İsmayıl səviyyəsində aparmaları" (7, 121) ilə məhdudlaşmır. Kərbəlayının tənqiddə "düşmənçilik" kimi təqdim olunan müqaviməti və üsyanı milli varlığın hər hansı bir səviyyədə və təbəqədəki təmsilçilərinə qarşı yox, sovet hökumətinə qarşıdır"* **(səh.26).** Tədqiqatçının bu mülahizələrindən sonra kiçik bir müdaxiləyə ehtiyac duyulur. Mən sovet hakimiyyəti dövründə - Stalinin ölüm ilində dünyaya gəlmişəm. Oktyabryat nişanı, pioner qalstuku və nişanı, komsomol bileti və nişanı və nəhayət, partiya bileti daşımışam. Amma ilk gəncliyimdən imperiya və müstəqil Azərbaycan qarşılaşmasını, birinin digəri üzərində ağalığını hiss etmişəm. Vətən mahiyyətinin hər cür ideoloji təbliğatın istəklərindən üstün olduğunu bilmişəm. Açığı, əvvəllər düşünürdüm ki, səhvlər ayrı-ayrı adamlarla bağlıdır. Ancaq get-gedə anladım ki, 30-cu illərdə güllələnən Xələfli camaatının baş tərpədənləri dikbaşlığın yox, ləyaqətlərinin qurbanları olublar. Mənim hələ erkən ayılmağımda Şah İsmayılların, İsmayıl Şıxlıların və Fərman Kərimzadələrin də rolu az olmayıb. Gənc müəllimin qadağa bilməyən emosiyası, sərhədləri dağıdan nitqi partiya funksionerlərini vahiməyə salırdı. Hətta özüm eşidə-eşidə deyirdilər: *"Bunu partiyaya kim keçirib"*. Mənsə, əvvəlcə elə bilirdim ki, kommunist elə o cür olmalıdır.

Və Təyyar Salamoğlunun *"sovet hökumətinə qarşı"* ifadəsi göstərir ki, qəddar qurumun təbiəti lap elə əvvəldən, həm də hər yerdə özünü tanıyan insanı qəbul etmirdi. Babamın başına gətirilənləri nənəmdən, atamdan eşitmişdim. Atama qarşı münasibət indi də gözlərimin qabağındadır. 30-cu illərin proletar diktaturası öz yerini partiya diktaturasına vermişdi. Mahiyyət olduğu kimi qalırdı. İnsan robota çevrilir, insanı mənən öldürür, onu müstəqillik hissindən məhrum edirdilər.

Sovet hakimiyyəti mənim gördüyüm zamandan üzü bəri yırtıcı təbiətini zahirən mülayimləşdirsə də, qoruyub saxlayırdı. Bu rejim Pol Pot və İyenq Sari iyrənc rejiminin *"sivil"* formasında dünyaya ağalıq iddiası ilə antiinsani sifətini öz mahiyyətinə çevirmişdi. İnsan layiq olduğundan çox aşağı mərtəbədə saxlanılırdı. Böyük kütlələr partiya və məmur elitasına işləyirdi. Qurulmuş əmək rejimi ilə heç bir insan öz ömrünü təmin etmək iqtidarında deyildi. Professor Təyyar Salamoğlu Kərbəlayının silaha əl atmasının bir səbəbini də onun tarixi gedişatı anlaması ilə bağlamaqda səhv eləmir: *"Mahiyyət planında Kərbəlayı hərəkatı milli varlığın sovet hökumətinə müqavimətini simvollaşdırır. Bu simvol daxilində Kərbəlayı tragik qəhrəman funksiyasında çıxış edir. Bu çıxışı reallaşdıran güc milli psixologiyadan gəlir. Milli varlıq namus, kişilik və özgürlük düşüncəsi və qanunları ilə yaşayır və bu qanunlar toxunulmazdır. Gücündən və imkanından asılı olmayaraq bu qanunları heç kəs və heç bir qüvvə poza bilməz, pozacaqsa, müqavimətlə qarşılaşacaq. Milli varlığın psixologiyası elədir ki, bu psixologiya tərəflərin gücünü ölçübiçmir. Namusa, kişiliyə, özgürlüyə təcavüz milli həyat qanununda yasaqdır və bu qanunu pozanlar cəzasını almalıdır. "Cinayət" cəzaya hazır olmağı tələb edir... Çünki bu həyatın igidlik, cəngavərlik qanunları - daim əli silahlı gəzmək, əli tətikdə saxlamaq, namus, qürur naminə daim ölümü gözünün qabağına gətirmək, (9, 48) ondan qorxmamaqdır"* **(səh.26-27).** Tədqiqatçı şəxsiyyətin varlığına nüfuz edən, daha çox zorla soxulan siyasi-ideoloji mühiti ona görə ifşa etmir ki, bunu haqsızlıq sayır, yox, məsələ bunda deyil. Əsas odur ki, şəxsiyyətin azadlığı, yenilməz ruhu, milli varlığa söykənişi qorunmayan cəmiyyət bütövlükdə faciə içərisindədir. Bu, şəxsiyyətin genosididir, onun mənəvi köklərinin kəsilməsinə cəhddir. O, başqa məsələdir ki, milli ruh özünün ölməzliyini qoruya, uçurumun başında, yarğanın lap qaşında da olsa saxlaya biləcək. Sovet hökuməti insanın ruhunu öldürməklə, sarsıtmaqla onun genini dəyişmək yolu ilə gedirdi. Tədqiqatçı yazı boyu bu məsələləri həssaslıqla araşdırır. Ara-sıra ziyalı düşüncəsinə də meydan verir; N.Cəfərovun bir hökmü lap yerinə düşür: *"İnsanın dünya ilə heç cür kontakta girə bilməməsi nə qədər böyük faciədirsə, hər cür kontakta girməsi, günün, dövranın "tələbi"nə uyğun olaraq rəngini dəyişməsi ondan qat-qat böyük faciədir. Həm cəmiyyət üçün, həm də şəxsiyyət üçün"* **(6, 232).** Patriarxal insan rəng dəyişməyə getmir, müxtəlif rəng çalarlarına bürünərək yaşamağı qəbul etmir. Ancaq rejim də bütün gücü ilə müqaviməti qırmaqda inadlıdır. Eyni müstəvidə - milli varlığa münasibətdə tədqiqatçı professor N.Cəfərovun qənaətlərinə söykənərək razılaşır ki, Kərbəlayı da, Abasqulu bəy də milləti eyni mövqedən təmsil edir. Onları heç bir siyasi əqidə ayıra bilməz. Siyasi ideologiya isə Kərbəlayını və Abasqulu bəyi bir-birindən ayırmaqla məqsədinə yetmək istəyir.

Əsas məqsəd yeni parçalanmalarla - ayırmalarla milləti gücdən salmaqdır. Tədqiqatçı T.Salamoğlu milli varlığın güzgüsünə çevrilən müstəviyə qayıdır: *"Kərbəlayının və Abasqulu bəyin timsalında sovet hökumətinin gəlişi ilə yolları ayrılan iki milli insanın tale yolu əks etdirilmişdir. Dəyişən zamanın təsiri ilə Kərbəlayı İsmayılın Abasqulu bəy xarakterindən və mənəviyyatından uzaqlaşıb Qəmloləşması prosesi və nəhayət, özündə güc tapıb Abasqulu bəy mənəviyyatı ilə yenidən qovuşması psixoloji cəhətdən son dərəcə gərgin situasiyaların təsviri fonunda gerçəkləşir"* **(səh.31).** Professorun diqqətə çəkdiyimiz ümumiləşdirici fikirləri təqdim edilən mətndən bütün parlaqlığı ilə görünür. Ayrılan yollar, ayrılıb yenidən qovuşan yollar... sadəcə görüntü yaratmır. Əsəri yaşanmış tarixin özü kimi bərpa edir. Yaddaşdakı oyanışın təqdiri altında insan - oxucu düşünməli olur. Burada tədqiqatçının gərgin psixoloji araşdırmalarının nəticəsi kimi araya gələn *"Qəmloləşma"* ifadəsi romanın oxucu arenasına çıxdığı az qala yarım əsrlik zaman ərzində Kərbəlayını bir obraz kimi xarakterizə edən ən dəqiq psixoloji - ədəbi kəşfdir. Buradaca tədqiqatçının təqdim elədiyi üsulla biz də Abasqulu bəyləşmə ifadəsini işlədə bilərik. Deməli, əslində, meyar Abasqulu bəy obrazıdır. Kərbəlayı İsmayılın təbiəti bu güzgüdə daha aydın görünür. Kərbəlayının Qəmloləşma və Abasqulu bəyləşmə proseslərinin arasındakı mərhələ özüdür. Abasqulu bəyin ölümündən sonra Kərbəlayi İsmayıl özünə qayıdır. Ancaq o, bu özünə qayıdışda qala bilməzdi. Çünki Abasqulu bəy yox idi. Abasqulu bəyin yoxluğu ilə barışmayan Kərbəlayı İsmayıl indi onun da ömrünü yaşamalı idi, onun da ağrılarını daşımalı idi. Bütün bunlar tədqiqatçının təqdim elədiyi tədqiqat metodunda - ədəbi-psixoloji üslubun işığında sözə çevrilən real, həyati düşüncələrdir.

Hər halda tədqiqatçı milli varlıqdan, mənəvi keçmişindən güc alan Kərbəlayının mənəvi sarsıntılarını, zəiflik məqamlarını, nəhayət, böyük səhvdən sonra özünə qayıdış iztirablarını, ağrılı yaşantılarını bədii mətnin özü qədər hissiyyatla təqdim edir: *"Burada danışan* ***(və düşünən)*** *Kərbəlayı Abasqulu bəyin ölümünə razılıq verən Kərbəlayı deyildi. Bu, öz-özünə xəyanətin gətirdiyi ağırlığın altında əzilən və ayılan, qapanmış bəsirət gözü açılan, yenidən öz varlığına qayıdan, etdiyi cinayətin cəzasını axıra qədər çəkməyə hazır olan milli insandır. Bu Kərbəlayı şura hökumətinin təcavüzü hesabına aşınmış, çürümüş əzalarını kəsib atmağa qadir, maddi olan hər şeydən əl çəkib mənəvi-ruhani dunya yaşamaqda israrlı olan saf varlıqdır. Tapındığı mənəvi dünya - ölümünə fərman verdiyi Abasqulu bəyin xəyalı - itirilmiş, itirilməkdə olan, yadlara qalan dünyadır. Bu dünya Kərbəlayı İsmayıla güc-qüvvət verir. Onu Qəmlonun fiziki gücünün əsarətindən qurtarır"* **(səh.34).** Alimin obrazın təbiətinə varmaq, insan psixolojisinin dərinliklərinə yetmək gücü sözün həqiqi mənasında oxucuda vəcd duyğuları yaradır. O, mürəkkəb insan təbiətinin sirlərini məntiqin qırılmazlığı ilə müşayiət olunan düşüncələrlə araya gətirir. Sanki tənqidçi obrazın qabağında dayanıb onu daşlamağa hazır olanlara öz qəlbini göstərir. Mənə inanırsınızsa, ona da inanın, - deyir. Əlbəttə, bu tədqiqatçının tənqidçi səmimiyyətindən, onun sonsuz inamla obrazlaşma gücündən yaranır. *"Yadlara qalan dünya"*nın ağrısını çəkmək elə bir səbəbdən yaranır ki, o səbəbi aradan qaldırmaq mümkün deyil. Atılan hər addım - Abasqulu bəyin, Xəlilin öldürülməsi yadlara qalan dünyanı daha artıq uzaqlaşdırır, yadlaşdırır. Amma yox, özünə qayıdış daha yeni mətləblərdən xəbər verir. Abasqulu bəyləşmə yenidən güclü Kərbəlayı gözümüzün qabağında canlandırır. Bu canlanma əslində, Kərbəlayı İsmayılın *"Qəmlonun fiziki gücünün əsarətindən"* qurtuluşunda təzahür edir. Burada tədqiqatçının daha bir ədəbi-psixoloji məqamı açan ifadəsinə diqqəti yönəltmək vacibdir. Bu da "Qəmlonun fiziki gücünün əsarəti" ifadəsidir. Zənnimcə, bu ifadə və onun təlqin elədiyi psixoloji mənzərə də tədqiqatçı Təyyar Salamoğlunun Kərbəlayı İsmayıl obrazına və ümumiyyətlə, əsərə yeni müstəvidən yanaşmasının nəticəsidir. Professor əsərdən elə məqamlara diqqəti yönəldir ki, gözlərimizin önündə açılan mənzərədə şəxsiyyətin bütün əzəmətini, qüdrətini görə bilirik. Tədqiqatçı sanki video-görüntü mənzərəsi yaradır: *"Kərbəlayı ilə Qəmlonun mağaradakı qarşılaşması bu mənada maraq doğurur: "- Çəkil, görüm. Mənim dərdim səninkindən az deyil. Sənə yüz dəfə dedim ki, o kişiyə toxunmayaq. O, bizə pis niyyətlə gəlməmişdi. Elədin, indi cəzasını çəkirik. Nahaq qan tökmək bəladı ha...*

*- Mən onun haqqını çəkdim, göndərdim o dünyaya. Bu, hər oğulun işi deyil, başa düşürsən?*

*Kərbəlayı mağaranın ağzında dayanıb qarlı dağlara baxırdı.*

*- Niyə başa düşmürəm. Səni tanımayana lənət.*

*Qəmlo xəncərini endirib yavaş-yavaş ona yaxınlaşdı. Kərbəlayı birdən-birə dönüb onun qabağında dayandı. Qəmlo tüfəngdən, topdan ürkən, qayıdan deyildi. Bircə dərin, zəhmli gözlərdən qorxurdu. Yavaşca xəncərini qınına saldı"* **(səh.34-35).** Yazıçı və tədqiqatçı vəhdəti - psixoloji qovuşma oxucunu daha güclü cazibə ilə özünə çəkir. Yazıçının və tədqiqatçının mənəvi birliyi ilə yaranan mənəvi işıq daha da gurlaşır, psixoloji dərinliklərə nüfuz edir. Yüksək estetik zövqün təsiri altında tənqidçi sənətə və sənətkara sevgisini əsirgəmir, sanki sözə çevirdiyi düşüncələrinin hər kəlməsində bunu hiss edirik. Bu sevgi həm də tədqiqatçının ilham mənbəyidir.

Qayıdaq tədqiqatçının diqqəti yönəltdiyi *"güc"* obrazına; Bu obrazın - güc motivinin açımı, həm də tədqiqatın bütün mahiyyəti ilə özünü açma, özünü təsdiq mərhələsidir. Xəncər ondan daha iti nəzərin qarşısında gücsüzdür.

*(Davamı 9-cu səhifədə)*

# yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri

*(Əvvəli 8-ci səhifədə)*

Burada Qəmlonu xəncəri qınına qoymağa məcbur edən güc, əlbəttə, birinci növbədə Kərbəlayi İsmayılın şəxsiyyəti, onun yenilməyən mənəvi qüdrətinin nəzərləridir. Amma təkcə bu deyil. Həm də Abasqulu bəyin nəzərləridir ki, Abasqulu bəyləşmə prosesini yaşayan Kəbalayi İsmayılın gözlərindən baxır. Və buradaca əlavə etmək yerinə düşər. Bu günkü oxucu həmin mənzərədə uğurlu ədəbi-psixoloji tədqiqatın müəllifinin də nəzərlərini görür. Bu mənzərəni həm də tədqiqatçının sayəsində bütün əhatəliliyi ilə yenidən, yeni dünyanın, itirilmiş, ancaq qaytarılmaqda olan dünyanın gözlərindən görə bilir. Təyyar Salamoğlu milli varlığın tarixi taleyini ədəbi düşüncə istiqamətində diqqətlə izləyən alimdir. Ona görə də Fərman Kərimzadədən İsmayıl Şıxlıya və eləcə də Kərbəlayı İsmayıldan Cahandar ağaya **("Dəli Kür"dən "Qarlı aşırım"a)** gedən hissi-psixoloji yolları yaxşı bilir. Onun bu yerdə İsmayıl Şıxlının qənaətinə müraciəti də təsadüfi deyil: *"Kərbəlayı İsmayılın öz gəlinini qan düşməninə etibar etməsi epizodundan çıxış eləyən İ.Şıxlı yazırdı: "...Cəngavərlik milli xüsusiyyətlərlə birləşdikdə nəhəng ehtiras yaranır, düşmənin də əzəmiliyinə valeh olursan" (19, 326). Kərbəlayının əli xəncərli Qəmlonun qarşısındakı duruşunda, doğrudan da, bir əzəmilik vardır. Bu əzəmilik bütün məzmun-mahiyyəti ilə Kərbəlayı İsmayılın varlığına və düşüncələrinə hakim kəsilən Abasqulu bəyin ruhundan qidalanır"* **(səh.34-35).** Bəli, bundan sonra Abasqulu bəyin ruhu Kərbəlayı İsmayılın varlığında yaşayır. Biz Kərbəlayı İsmayılın təbiətində iki gerçək insanı görürük. Bu fikirlər havadan gəlmir. Salamoğlunun çox böyük həssaslıqla qələmə aldığı düşüncələrin məntiqi nəticəsidir ki, yaza bilirəm.

Onun Abasqulu bəyin ölümü ilə bağlı araşdırmaları da yenə milli varlığın sarsıntısından sonra özündə güc tapıb, birliyə, özünü dərkə xidmət edən milli varlığın, milli ruhun açımına xidmət edən motivlərin üzərinə işıq salır.

Ümumiyyətlə, Abasqulu bəyin kimliyi monoqrafiyada tədqiqatçı xüsusi diqqət və bəlkə də, qayğı ilə təqdim edilir: *"Əslində, Abasqulu bəyin Kərbəlayıya tövsiyələri özünün praktik həyat təcrübəsindən doğur. Abasqulu bəy daşnak qırğınından xilas edib Cənubi Azərbaycana apardığı eli geri qaytaranda sovet hökumətinə müqavimət yolu yox, ona qoşulmaq yolunu ona görə tutub ki, yağışdan çıxıb yağmura düşməsin. Daşnak qırğınından çıxarıb min bir zillətlə qoruduğu el-obanı sovetin qırğınına verməsin. Abasqulu bəyin öz torpaqlarını da, bütün var-dövlətini də, öz canını, bütün bacarıq və qabiliyyətini sovet hökuməti yolunda qoymasında heç kimə etiraf olunmayan, heç vaxt dilə gətirilməyən bir amal var: el-obanı qorumaq, onun namusuna sahib çıxmaq"* **(səh.37).** Müəllifi burada dayandırıb düşüncə axınına rəvac verən mühakimələri doğuran səbəbləri bir az da dərinləşdirmək olar; Azərbaycanın tarixi taleyində bu günə qədər sağalmayan yara açmış Gülüstan və Türkmənçay müqavilələrinin bağlandığı zamandan Fərman Kərimzadənin qələmə aldığı *"Qarlı aşırım"* dövrünədək 100 il, bir az da çox vaxt keçmişdi. Xalq o tayda bir soyğunçunun, bu tayda başqa işğalçının zülmü altında idi. İnsanların böyük əksəriyyəti var-yoxdan çıxmış, kasıbçılıqdan cana doymuşdu. Hələ bir tərəfdən də Çar Rusiyasına siyasi nökərçilik edən ermənilərin də tarixi yerlərə yiyələnmək cəhdləri **(və bir çox hallarda buna nail olmaları)** əhalinin çox hissəsini mövcud rejimdən narazı salmışdı. Bundan avantürist bolşeviklər, bolşevikləşmiş daşnaklar, **(qatı bolşevik azərbaycanlılar da)** yararlanaraq əhalinin yoxsul təbəqəsini nisbətən tavanalı - imkanlı sahibkarların üzərinə qaldırmışdılar. Bir növ inqilab artıq Rusiyadan Cənubi Qafqaza - Azərbaycana da keçmişdi. Burada daha inqilaba qarşı dura biləcək qüvvə yox idi. Müstəqil Azərbaycanı müstəqil dövlət kimi xilas etmək cəhdləri də özünü doğrultmadı. Beynəlxalq qüvvələrin ikiüzlülüyü də az rol oynamadı. Abasqulu bəy bütün bunları yaxşı bilirdi. Elin böyüyü olmaq missiyası da onu böyük əksəriyyətin tərəfinə çəkirdi. Bu tədqiqatçının mətnaltı oxusundan da görünür: *"Abasqulu bəyin Kərbəlayıya dediyi sözlərin zamanı üçün dilə gətirilməsi mümkün olmayan, lakin həmin sözlərin mətnaltı mənasında çox dəqiq ifadə olunan belə bir fikir dayanır: "Kərbəlayı, el-obanı geri qaytaranda mən də sovet hakimiyyətinə qarşı çıxa bilərdim. Biz daşnaklarla mübarizədə ikiillik hərb təcrübəsinə malik idik. Amma biz bu yolu seçmədik. Sovet hökumətinin daşnaklarla müqayisə olunmayacaq gücünü gördük. Mənasız qırğına, elin namusunun ayaqlar altına düşüb tapdalanmasına yol vermədik. Başqasının gücünü dəqiq qiymətləndirmədən mübarizə meydanına atılmaq qəhrəmanlıq sayıla bilər, ancaq ağıllı hərəkət deyil. Biz hesabı içəri verdik. Sən də ver, daşı ətəyindən tök, qoy camaat mənasız qırğına getməsin"* **(səh.37).** Doğrudan da onu - elin başçısını, el yolunda çox şeydən keçən Abasqulu bəyi ölümə aparan səbəb də elə bu idi. Bütün bunlar Abasqulu bəyin içindən keçən səsdir. Bu yerdə bir məqama dönmək istəyi yarandı. Qəmlonu yırtıcıya çevirən səbəb məsələsi. Əvvala Qəmlo qoçaqlığına rəğmən şöhrət istəyir, ancaq bu şöhrəti xalq Abasqulu bəyə ünanlayıb. Ondan geri alası deyil. Qəmloda həsəd hissi var. Abasqulu bəyin atını minib, papağını qoymaq istəyi var. Bütün bunlar onun ilk gəncliyindən varlığına hopmuş keyfiyyətlərdir ki, sonralar dərinləşib üzə çıxır yırtıcılığında. Ancaq Qəmlo içindəki gizlinləri axıracan etiraf etmir. Buna baxmayaraq, həmin gizlinlərin təsirilə hərəkət edir. Ümumiyyətlə, tədqiqatçının dediyi kimi, Abasqulu bəyin ölümü çox mətləbləri açıqlayır. Qəmlonun şəxsi həsədlərini görən Kərbəlayı da anlayır ki, onunla axıracan gedə bilməz. Ancaq monoqrafiyada Kərbəlayı ilə Abasqulu bəyi əbədi bağlayan və sonra iki ruhun bir canda yaşarılığına təminat verən səbəblər yadda qalası və bədii mətn həqiqətlərinə əsaslanan detallarla verilir: *"Abasqulu bəyin inqilab tərəfdarlarına qoşulmasının el-obanı xilas etmək məqsədinə xidmət etməsi onun Kərbəlayıya dediyi aşağıdakı sözlərdə açıq şəkildə ifadə olunur: - "Kərbəlayı, bu hökuməti quranlardan biri də mən olmuşam. Adamlar öz yurdlarına qayıtmalı idilər. "Qırmızı tabor"da şir kimi vuruşurdular. Naxçıvanı da azad elədik, Şərili də. Kəndimizə qayıtdıq. Evlər dağılmışdı, bağ-bağçalar doğranmışdı. Xarabalara sahib olduq. Hamının dərdi bir idi, Kərbəlayı! Sən isə... Mənim camaatsız bir günüm olmasın!" Kərbəlayı və adamları bu həqiqəti vaxtında başa düşmürlər. Bu həqiqəti onlara, onların yolunda özünü fəda etmiş Abasqulu bəyin ölümü başa salır".*

Söz yox ki, yazıçı Kərbəlayi İsmayıl obrazını sözlə *"tikib quranda"* onun titulunu adı ilə təsadüfi birləşdirməyib. İsmayıl Kərbəlayi olanacan kifayət qədər həyat yolu keçib. O zamankı yol imkanları ilə şərqi səyahət edib. Hesabla gərək o düşüncə baxımından daha çevik olaydı. Amma yox, onun dini görüşləri, şəriət qaydaları ilə yaşam tərzi çevik düşüncənin ətalətinə çevrilir. Abasqulu bəy seminariya təhsili alıb. Təbii ki, bu fərqlər özünü göstərməli idi. Hər ikisi milli varlığın daşıyıcısı, milli ruhun ifadəçisi olsa da. Təəssüf ki, bu məqamlar araşdırmaçının diqqətindən kənarda qalıb. Kərbəlayi bilməli idi ki, daha ölkə şəriət qanunları ilə idarə oluna bilməz. Əslində, şəriət qanunlarını 1400 il əvvəl Azərbaycana



gətirənlər də milli varlığa və milli ruha qalib gəlmək məqsədi güdürdülər. Bütün hallarda milli varlıq şəriət qanunlarından da güclüdür. Ən çətin məqamda belə özünü alt qatda da olsa, hifz edir. Kərbəlayı İsmayılın əməli nəinki onun ətrafına cəmləşmiş silahlıları, heç doğmaları *(qardaşı və qardaşı oğlu)* tərəfindən də təqdir olunmur. Monoqrafiyada doğru qeyd edilir: *"Kərbəlayının qardaşı oğlu Məhərrəmin Abasqulu bəyin ölümündən sarsılaraq kiçik əmisi Vəliyə uz tutaraq dedikləri müəyyən məsələlərə aydınlıq gətirmək baxımından maraqlıdır: "Əmim (Kərbəlayı - T.S.) elə bir iş gördü ki, heç vaxt yaddan çıxmayacaq. Abasqulu bəyi öldürən adamın adı həmişə pisliyə çəkiləcək. O kişi canını, malını da camaata qurban vermişdi. Ona əl qaldırmaq bizi nəsilbənəsil incidəcək, əzab verəcək". Bu həqiqəti Kərbəlayı da çox yaxşı başa düşür və qəbul edir. Hətta o dərəcədə başa düşür ki, başladığı iş, şura hökumətinə qarşı apardığı ölüm-dirim savaşı da onun gözlərində öz mənasını itirir. F.Kərimzadə Kərbəlayı İsmayılın keçirdiyi sarsıntıları çox ustalıqla verir, onun daxili aləmindəki təbəddülatları zərgər dəqiqliyilə ifadə edir: "Kərbəlayı İsmayıl getdi. Daha onu başladığı iş çox maraqlandırmırdı. Abasqulu bəyin kürəyi yerə gələndən sonra ürəyindəki inam qırılmışdı"* **(səh.38).** Təsir, əks-təsirə bərabərdir. Nəzəri təhlildən sonra bədii mətnə müraciət də bunu təsdiq edir. Söhbət Kərbəlayı İsmayılın yaxşı və yaxud pis adam olmağından getmir. Sanki bu heç müəllifi maraqlandırmır da. Ancaq Kərbəlayının düşüncələri göstərir ki, ləyaqətli adam öz səhvinin ağrısını necə çəkə bilər. Bu, o dövr idi ki, artıq xarakter yaratmaq meyli yazıçılarda şablon qəhrəman meylinin qarşısını kəsmişdi. Professor Şirindil Alışanlı yazır: *"60-70-ci illərdə nəsrimizin yeni hadisələrindən danışarkən tənqid məsələni belə qoydu ki, əsərdə açıq tendensiya, müsbət qəhrəman vacib deyil, əsas məsələ fəal yazıçı mövqeyi, bu mövqeyin aydınlığı ilə bağlıdır və sxematik müsbət qəhrəmanlar ədəbiyyatda elə çoxalmışdır ki, onları bir-birindən ayırmaq mümkün deyildir"* **(Şirindil Alışanlı. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı. Sabah nəşriyyatı, 2010, səh.322).** Ş.Alışanlı fikirlərinin davamında Y.Qarayevin belə bir mülahizəsini də təqdim edir: *"Uzun illər ədəbiyyatda, doğrudan da, kök salmış "sxematik, şablon, süni qəhrəmandan" iki yolla xilas olmaq olar: "süni" ilə bərabər, "qəhrəman" sözünü də tullamaq, ya da yalnız "süni" sözünü tullamaq, qəhrəmanın özünü isə şəxsi ifadə və vicdan həqiqəti səviyyəsinə qalxan əqidə sahibinə çevirmək. Birincisi - asan, ikincisi - çətin yoldur. Biz ikincinin tərəfdarıyıq"* **(Yenə orada. (Y.Qarayev. Ədəbi tənqidin vəziyyəti və vəzifələri. "Ədəbiyyat və incəsənət", 10 iyun, 1983) səh.322-323).** Bu, o vaxt idi ki, Fərman Kərimzadə ikinci yolu seçmiş və Kərbəlayı İsmayıl obrazını yaratmışdı. Əsərin motivləri əsasında çəkilən filmin əsas obrazlarının ifaçıları Əbdülhəsən Məmmədov **(Abasqulu bəy Şadlinski)** və Adil İsgəndərov **(Kərbəlayı İsmayıl)** kişi rollarının ifasına görə festivalın mükafatlarına layiq görülmüşdülər. Aktyorların sənətkarlığını aşağılamadan inamla demək olar ki, bu mükafat həm də Fərman Kərimzadənin xarakter yaratmaq istedadının təsdiqi idi. Çünki yazıçı əsərdə **(aktyorlar filmdə)** bağrından qopduğu xalqın - Azərbaycan türkünün obrazını yaratmışdı. Milli xarakteri təmsil edən obrazlar oxucuya deyirdi ki, mən azərbaycanlıyam, Azərbaycan türküyəm. Obrazların əsas təyinedici keyfiyyəti onların hansı sinfə - təbəqəyə mənsubluğu deyil, onların bir insan kimi xarakter xüsusiyyətləridir. Tənqidçi Akif Hüseynov vaxtilə, 80-ci illərin əvvəllərində *"Dəli Kür"*dən danışanda göstərirdi ki, *"surətlərin dünyagörüşündə sinfi baxış yeganə meyara çevrilmir. Həqiqi realist əsərlər üçün səciyyəvi olan bir keyfiyyəti - sinfi baxışla milli təsəvvürlərin qovuşmasını, bunların heç birinin digərindən təcrid olunmamasını biz burada da görürük. Sinfi psixologiya burada milli konkretliyində, milli psixologiya təməlində və müəyyənliyində canlandırılmışdır"* **(Akif Hüseynov. Müxtəlifliyin birliyi. Bakı-1983. səh.140).** Elə bil ki, bütün bunlar F.Kərimzadənin *"Qarlı aşırım"*da bizimlə danışan milli xarakter sahibi olan obrazları haqqında deyilib. Əslində, professor T.Salamoğlu da Kərbəlayı İsmayılın izi ilə elə buna görə gedir. Özü də inadla. Ona görə ki, vaxtilə ideoloji təsir altında səhvini qeyri-adi dərəcədə fəci bir əhvalla yaşayan Kərbəlayı İsmayılın hətta zamanın belə çətin həzm edə bildiyi **(bəlkə də bilmədiyi)** hadisəyə düzgün qiymət versin. Səmimi peşmançılıq hissinin mahiyyətini hər kəs düzgün qavrasın. T.Salamoğlunun tədqiq və axtarışlarının qənaətbəxş nəticəsi budur ki, həm Abasqulu bəyin, həm də Kərbəlayı İsmayılın nəticələri, müasir varisləri eyni insani müstəvidədir. Bu, çox vacib məsələdir. Ona görə ki, millətin öz gücünə güvənib tarixi problemlərini həll etməsi üçün çıxış nöqtəsi elə bu birlikdən keçir.

Bəlkə də yerinə düşmür, Kərbəlayının inamının sarsılması hadisəsi, əslində, ayrılmanın qarşısını elə zamanındaca almışdı. Salamoğlu da elə inamın qırıldığı yerdən sözünə davam edir: *"İnam niyə qırılmışdı? Kərbəlayı niyə sarsılmışdı? Kərbəlayı qiyam qaldıranda namus davasına qalxmışdı. Ancaq Abasqulu bəyin öldürülməsi namus davasına namussuzluq qatmışdı . Özü də bu namussuzluğa Kərbəlayı özü öz əli ilə imza atmışdı. Abasqulu bəyin ölümündə Kərbəlayı İs-mayıl öz ölümünü gördü"* **(səh.38).** Tədqiqatçı bədii mətndən çıxış edərək bütün psixoloji məqamları diqqətdə saxlayır. Hadisələri bütün canlılığı ilə qavrayır. Özü də bütün ruhu ilə həmin hadisələrin içərisinə daxil olur. Bu, artıq sözün və milli ruhun vəhdətidir. Başqa sözlə, tədqiqatçının azərbaycançılıq həqiqətləridir. Etnosun xarakteri söz-söz canlanır, xüsusi cazibə yaradır. *"Alnına soyuq tər gəldi. O, əlini alnına çəkdi. Gözlərini yumub-açdı. Onu basmış qəramətdən qurtarmağa çalışdı". - Bunlar yazıçının təsviridir. Bu da tədqiqatçının: "Ölüm Kərbəlayını qorxutmurdu. Kərbəlayını qorxudan namussuz ölüm idi. Kərbəlayının alnına gələn "soyuq tər" ölümün onu təhdidi deyildi, bu tər namussuz ölümün gətirdiyi təhdid idi".* Tədqiqatçının *"soyuq tər"* və *"namussuz ölüm"* obrazları o qədər dəqiq və yerində, sərrastlıqla işlənib ki, oxucunun yaddaşında qayada yazılmış yazı kimi iz buraxır. Sanki oxucu həyatın mənasını - bu sərt həqiqəti - yazıdan çıxış nöqtəsi kimi alaraq və tamamilə saf və sağlam bir ruhla yenidən dərk edir.

*(Davamı var)*